Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.

Heydər ƏLİYEV



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 6 yanvar 2018-ci il | № 1 (2217) | Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib



*Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Təbrikdə ordu quruculuğu və Dağlıq Qarabağ probleminə də toxunan dövlət başçısı münaqişənin ədalətli həlli üçün ölkəmiz tərəfindən böyük səy göstərildiyini bildirib:*

"Mən bu il 20-dən çox xarici səfər etmişəm. Bu səfərlər çərçivəsində Azərbaycanın milli maraqlarını müdafiə etmişəm. Deyə bilərəm ki, xarici tərəfdaşlarla əlaqələrimiz bir daha göstərir ki, Azərbaycanın dünya miqyasında çox müsbət imici və reputasiyası vardır.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir. Bu istiqamətdə nəticələr olmasa da, hesab edirəm ki, 2017-ci ildə bizim mövqelərimiz daha da möhkəmləndi. Birinci onu qeyd etməliyəm ki, separatist rejim tərəfindən keçirilmiş qondarma "referendum" dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Nə qonşu ölkələr, nə Avropa İttifaqı, nə də ki bütün başqa ölkələr bu qondarma "referendum"u tanımadılar və beləliklə, bir daha göstərdilər ki, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da təbiidir. Çünki Dağlıq Qarabağ bizim əzəli tarixi torpaqlarımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Sadəcə olaraq, mənfur qonşular tərəfindən bizim tarixi, dini abidələrimiz məhv edilibdir və uzun illərdir ki, bu torpaqlar işğal altındadır.

Hesab edirəm, ikinci önəmli məsələ ondan ibarətdir ki, Ermənistan qeyd-şərtsiz danışıqlara qoşuldu, baxmayaraq ki, şərt qoyurdu. Aprel məğlubiyyətindən sonra Ermənistan tərəfindən irəli sürülmüş heç bir şərt Azərbaycan tərəfindən qəbul edilmədi. Danışıqlar qeyd-şərtsiz bərpa edildi. Ümid edirəm ki, danışıqlar nəticəsində biz məsələnin həllinə nail ola bilərik. Əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi güclü iqtisadi və hərbi potensial daha da gücləndirir. Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib. Hesab edirəm, bu məğlubiyyət onlar üçün yaxşı dərs olmalıdır, bir daha bütün dünyaya göstərməlidir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq."

Azərbaycan Ordusunun 2016-cı ilin aprelində düşmən üzərindəki tarixi zəfərinə toxunan Prezident bir daha vurğulayıb ki, aprel qələbəmizdən sonra Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada dalğalanacaqdır.

Dövlət başçısının fikrinə görə, bunu deməyə əsas verən Azərbaycan xalqının əyilməz iradəsidir, Azərbaycan rəhbərliyinin siyasətidir.

"Bu il Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra həyat qayıtdı. Cocuq Mərcanlının inkişafı bizim əyilməz ruhumuzun rəmzidir. Uzun illər o kəndin sakinləri başqa yerlərdə yaşamışlar. Ancaq Azərbaycan dövləti orada qəsəbə salandan sonra onlar öz doğma torpağına qayıtmışlar. Cocuq Mərcanlının bərpası bizim qürur mənbəyimizdir. Bu gün orada 150 evdən ibarət gözəl qəsəbə salınıb, məktəb, tibb məntəqəsi, uşaq bağçası və Şuşa məscidinin - vəhşi qonşular tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib."

Prezident İlham Əliyev Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından zorla didərgin salınan soydaşlarımızın həyat şəraitinin də daim dövlətin diqqətində olduğunun qeyd edib. "Bu il məcburi köçkünlərin problemlərinin həlli işində digər çox önəmli və deyə bilərəm ki, tarixi hadisə baş vermişdir. Vaxtilə işğal altında olan Şıxarx qəsəbəsində 1170 ailə üçün tikilmiş şəhərcik açılmışdır. Bu önəmli hadisə bir tərəfdən onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Digər tərəfdən, onu göstərir ki, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan yeni həyat qurur, yeni ictimai binalar, yaşayış binaları salınır və minlərlə köçkün bu torpaqlara qayıdır".

Ordu quruculuğu mövzusundan danışan Ali Baş Komandan bildirib ki, bizim hərbi potensialımız bu il də diqqət mərkəzində olmuşdur. "Ordumuz üçün nə lazımdırsa onu da biz həll etdik. Bu gün bütün beynəlxalq reytinqlər göstərir ki, Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bunu bilir və bilməlidir. Bundan sonra da ordu quruculuğu üçün bütün lazımi tədbirlər görüləcək, yeni texnika, silahlar, ən müasir döyüş vasitələri alınır və alınacaqdır".

- Əlbəttə ki, qarşımızda duran bütün vəzifələri icra etmək üçün güclü iqtisadiyyat lazımdır, - deyə Prezident vurğulayıb ki, 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır. - Baxmayaraq ki, neftin qiyməti hələ də aşağı səviyyədədir və Azərbaycanda neftin hasilatı düşür, Azərbaycan apardığı islahatlar nəticəsində çətin vəziyyətdən şərəflə çıxa bilmişdir. Bunu beynəlxalq mötəbər təşkilatlar da qeyd edir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına, ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri "Açıq qapı" günündə Qusar rayonunda olub

*Dekabrın 30-da Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə hərbi hissələrdə əsgər valideynləri və yaxınları, ictimaiyyət nümayəndələri üçün "Açıq qapı" günü keçirilib.*



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun başçılığı ilə nazirliyin rəhbər heyəti Qusar qarnizonunda yerləşən hərbi hissədə "Açıq qapı" günündə iştirak edib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Qusar rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov və nazirliyin digər rəhbər heyəti hərbi hissənin ərazisində ucaldılan ümummilli liderimiz Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq ehtiramlarını ifadə ediblər.

Sonra tədbir iştirakçıları Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adını daşıyan küçədəki barelyefinin önünə də gül dəstələri qoyaraq şəhidlərimizin xatirəsini bir daha ehtiramla anıblar.

Daha sonra nazir və digər rəhbər şəxslər əsgər yaxınları, valideynləri ilə birlikdə bayram şənliyində iştirak ediblər.

"Açıq qapı" günündə hərbi hissəyə gələn vətəndaşlar şəraitlə tanış olub, xidməti və inzibati binalara, əsgər yataqxanaları və yeməkxanaya baş çəkiblər. Müdafiə Nazirliyinin rəhbərliyi ilə keçirilən görüşdə valideynləri narahat edən məsələlər müzakirə olunub və onların sualları cavablandırılıb. Əsgər valideynlərini dinlədikdən sonra nazir bir sıra məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib.



Xatirə olaraq hərbi hissə ərazisində Eldar şamı ağacları əkildikdən sonra Müdafiə naziri hərbi qulluqçular və ziyarətçilərlə birlikdə bayram süfrəsi arxasında nahar edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

# Növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb

Azərbaycan Prezidentinin Sərəncamına uyğun olaraq, yanvarın 1-dən ölkəmizdə növbəti həqiqi hərbi xidmətə çağırış başlayıb.

AZƏRTAC xəbər verir ki, bir ay davam edəcək çağırış prosesində minlərlə gənc hərbin sirlərinə dərindən yiyələnmək, Vətənin keşiyində əzmlə dayanmaq kimi şərəfli borcunu yerinə yetirmək üçün əsgəri xidmətə yollanacaq.

Sərəncama əsasən, 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılırlar.

Həmin sənədə uyğun olaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılırlar.

Qeyd edək ki, Prezident İlham Əliyev 2017-ci il dekabrın 1-də Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə silsilə tədbirlər keçirilib

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, mərkəzi və qarnizon zabitlər evlərində silsilə bayram tədbirləri keçirilib.*



Bayram tədbirlərində yerli icra hakimiyyəti orqanları, dövlət və qeyri-hökumət təşkilatları, veteranlar, ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəxsi heyətlə görüşlər, viktorinalar, mədəni-kütləvi, vətənpərvərlik və idman tədbirləri keçirilib, onlara bayram sovqatları çatdırılıb.

Şəxsi heyət bayramlarla əlaqədar şəhid məzarlarını ziyarət edib, şəhid və yaralıların ailələrinə baş çəkilib, onların övladlarına sovqatlar və hədiyyələr təqdim olunub.

Təntənəli mərasimlərdə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Gəncə Qarnizonu Zabitlər Evinin və rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri şəxsi heyət qarşısında maraqlı konsert proqramları ilə çıxış ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "İtaliyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyində davamlılıq nümayiş etdirəcəyinə ümid bəsləyirik"

ATƏT-in 2018-ci il üzrə fəaliyyətdə olan sədri kimi İtaliyanın prioritetləri sırasına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi və səyləri ilə həll edilməsinin daxil olunmasını müsbət qiymətləndiririk.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. O deyib: "Biz ATƏM-in (sonradan ATƏT adlandırıldı) Minsk Konfransının və sonradan ATƏT-in Minsk Qrupunun sədri olmuş İtaliya parlamentinin üzvü və İtaliyanın xarici işlər nazirinin müavini Mario Rafaelli tərəfindən BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinə əsasən hazırlanmış Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını nəzərdə tutan "Təcili tədbirlər haqqında vaxt cədvəlini" çox yaxşı xatırlayırıq. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair "Təcili tədbirlər haqqında vaxt cədvəli" BMT TŞ-nın 853 saylı qətnaməsinin əlavəsi kimi təqdim edilib.

Bu əlavə barədə məlumat verən H.Hacıyev qeyd edib ki, BMT Təhlükəsizlik Şurası 874 saylı qətnamədə ATƏT-in Minsk Qrupu tərəfindən təqdim olunan "Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrası üçün təcili tədbirlər haqqında yenilənmiş vaxt cədvəli" adlı sənədini alqışlayır və təqdir edir. Həmçinin BMT TŞ-nın 874 saylı qətnaməsində ATƏT-in Minsk Qrupunun "Yenilənmiş vaxt cədvəlində" nəzərdə tutulan qarşılıqlı və təcili tədbirlərin həyata keçirilməsinin təmin olunması, xüsusən işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması tələb olunur. Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair "Təcili tədbirlər haqqında vaxt cədvəli" o zaman ATƏM-in Minsk konfransının üzvü olan 9 ölkə tərəfindən birlikdə hazırlanıb.

1993-cü ilin iyulun 28-də Mario Rafaelli ATƏM-in Minsk Konfransının sədri statusunda Minsk Konfransının 9 ölkəsi adından verdiyi bəyanatında və BMT Baş katibinə təqdim etdiyi hesabatında bildirib: "Güc yolu ilə işğal olunmuş ərazilərdən qoşunların dərhal çıxarılması sülh danışıqlarının irəli aparılması üçün ən mühüm amildir" (BMT Təhlükəsizlik Şurasının S26184 1993-cü il 28 iyul tarixli sənədi).

"Ümid edirik ki, İtaliya Respublikası ATƏT-in fəaliyyətdə olan sədri statusunda BMT TŞ-nın müvafiq qətnamələrinin tələblərinin yerinə yetirilməsi üçün öz mövqeyində davamlılıq nümayiş etdirəcək", - deyə XİN-in mətbuat xidmətinin rəhbəri əlavə edib.

# Naxçıvan Qarnizonunun Hərbi Hospitalına bayram sovqatı aparılıb

*Birlik və həmrəylik ordunun gücünü təşkil edir. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublika ərazisində yerləşən ordu, birləşmə və hissələrində xidmətin təşkilində "bir nəfər hamı, hamı bir nəfər üçün" prinsipi əsas götürülür. Bu isə şəxsi heyətin mənəvi-psixoloji hazırlığını daha da artırır. Bayram günlərində hərbi hissələrə sovqatların aparılması, əsgərlərlə həmrəylik nümayiş etdirilməsi isə xalq-ordu birliyinin daha bir ifadəsidir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Qarnizonunun Hərbi Hospitalına gəlib, burada müalicə olunan əsgərlərlə görüşüb.

Məlumat verilib ki, hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunmasına xüsusi diqqət yetirilir. Xüsusilə çətin dağlıq şəraitdə yerləşən birləşmə və bölmələrdə yaradılan şərait, iqlim şəraitinə uyğun rejim qaydalarının və qidalanmanın tətbiqi əsgərlər arasında xəstəliklərin azalmasına səbəb olub. Hərbi hospitalda hərbi qulluqçuların müayinə və müalicəsi üçün lazımi şərait yaradılıb. Dərman vasitələri ilə təminat və müasir avadanlıqların qurulması, eləcə də ixtisaslı həkimlərin olması tibbi xidmətin hərtərəfli təşkilinə imkan verir.

Ali Məclisin sədri hospitalın ayrı-ayrı bölmələrində müalicə olunan əsgərlərin səhhəti və qidalanması ilə maraqlanıb, onların və kollektivin bayramını təbrik edib.

Həkim Fariz İbrahimov hərbi hospitalda müalicə olunan xəstələr və kollektiv adından minnətdarlıq edib.

Hospitalda müalicə alan əsgərlərə və tibb heyətinə bayram hədiyyələri paylanıb, gətirilmiş ərzaq məhsulları mətbəxə təhvil verilib.

Ali Məclisin sədri deyib: "Bu gün Hərbi Hospitalda müalicə olunan əsgərlərlə də görüş keçirildi. Vaxtilə orada xəstələrin sayı çox idi. Lakin bu gün hospitalda ümumi qarnizon üzrə 38 xəstə vardır. İstər Psixi və Ağciyər xəstəlikləri dispanserlərində, Onkoloji və Yoluxucu xəstəliklər mərkəzlərində, istərsə də hərbi hospitalda xəstələrin sayının ilbəil azalması yaradılan şəraitin, eyni zamanda, dövlətlə səhiyyə işçilərinin birgə fəaliyyətinin nəticəsidir. Kollektivlər bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə etməli, xəstələrə hərtərəfli tibbi xidmət göstərilməlidir."

## Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu birgə tədbirlər planı imzalayıb

2018-ci ildə Azərbaycan Ordusunda hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsi, cinayət hadisələrinin qarşısının alınması məqsədilə Müdafiə Nazirliyi ilə Respublika Hərbi Prokurorluğu arasında birgə tədbirlər planı imzalanıb.

Plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində müxtəlif kateqoriyalardan olan hərbi qulluqçularla nəzərdə tutulan görüşlərdə şəxsi heyətin hüquqi biliklərinin artırılması, nizam-intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, mövcud problemlərin aradan qaldırılması istiqamətində müəyyən olunmuş tədbirlər və digər fəaliyyətlər həyata keçiriləcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**5 yanvar 2018-ci il.** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 125 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Cəfərli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şuraabad, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Əbdinli, Qaraqaşlı, Sarıcalı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə Naxçıvan Qarnizonunda silsilə tədbirlər keçirilib



Ön xətdəki bölmələrimizdən birində keçirilən bayram tədbirini Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Mirqiyas Rüstəmov açıq elan edərək bildirib ki, mütəmadi olaraq şəxsi heyətlə ictimaiyyət nümayəndələrinin görüşü təşkil edilir, mədəni-kütləvi tədbirlər keçirilir. Nəticədə isə xalqın onu qoruyan əsgərə inamı artır, şəxsi heyətin mənəvi-psixoloji durumu daha da yüksəlir. Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi paradı minlərlə vətəndaşımızın izləməsi xalq-ordu birliyinin möhkəm təməlindən xəbər verir. Bütün bunların və xidmətin düzgün təşkilinin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017-ci tədris ilinin yekunlarına əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülüb.

Tədbirdə çıxış edən zabitlər, keçmiş döyüşçülər, tanınmış ziyalılar, mədəniyyət və ictimaiyyət nümayəndələri əsgərləri əlamətdar bayramlar münasibətilə təbrik edərək xidmətlərində uğurlar arzulayıblar.

Əsgərlər tərəfindən alqışlarla qarşılanan Naxçıvan Dövlət Filarmoniyasının mahnı və rəqs ansamblının yaradıcı kollektivinin maraqlı proqramlarla çıxışları, mahnı və rəqsləri şəxsi heyətdə xoş ovqat yaradıb.

Bayram tədbirlərinin keçirildiyi ön xətdəki bölmələrdən birində nümunəvi xidməti ilə seçilən zabitlərdən Rahid Əliyev, Nəsimi Əkbərli, Elgiz Yusifli və digərləri ilə həmsöhbət olub təəssüratlarını öyrəndim. Səngərlərdə ayıq-sayıq döyüş növbətçiliyi aparan Kamal Nəcəfov, Mahmud İmamquliyev, Vurğun Məmmədov, Sirac Nəcəfov, Orxan Baxışzadə, Əziz İsmayılov, Elşən Nəbiyev, Ənvər Yusifov, Əjdər Hacızadə kimi əsgər və çavuşların da vətənpərvər fikirləri ilə tanış oldum. Səslendirilən fikirlər və görüb şahidi olduqlarımız onu deməyə əsas verir ki, "bir nəfər hamı, hamı bir nəfər üçün" şüarını əldə rəhbər tutan hərbi qulluqçularımız Vətən torpaqlarının etibarlı müdafiəsində yumruqtək bir olduqlarını nümayiş etdirirlər. Qonağı olduğumuz hərbi bölmədə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə keçirilən bayram tədbirində şəxsi heyətin bir arzu və amalı var idi - Vətənin etibarlı müdafiəçisi kimi işğal altındakı torpaqlarımızın azad edilməsində fəal iştirak etmək.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən bayram tədbirində çıxış edənlər şəxsi heyəti təbrik ediblər. Tədbirdə Naxçıvan şəhər Mədəniyyət və Turizm şöbəsinin "Şəlalə" instrumental ansamblı da maraqlı konsert proqramı ilə çıxış edib.

Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında yerləşən digər birləşmə və hissələrində, Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonu tam orta məktəbində və uşaq baxçalarında 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibəti ilə bayram tədbirləri keçirilib.

Heydər Əliyev adına Hərbi Liseyin kursantları, Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri və uşaq baxçalarının balaca fidanları üçün təşkil olunan tədbirlərdə kursant və məktəblilər, uşaqlar mahnı, şeir və rəqs nümunələri ilə çıxış ediblər. Şaxta baba və Qar qızın Yeni il şənliklərində iştirakı isə uşaqların sevincinə səbəb olub.

**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, dekabrın 30-da 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirilib.*

*Ənənəyə uyğun olaraq bütün tədbirlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın işğalçılardan qorunmasında həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib. Həmçinin Müdafiə nazirinin şəxsi heyətə təbriki oxunub.*

*Əməkdaşlarımızın müxtəlif bölgələrdən hazırladıqları yazıları təqdim edirik.*



Səhərdir. "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsində yenə qələbəlikdir. Respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri, ictimaiyyət nümayəndələri, məktəblilər, veteranlar Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə birgə keçirilən "Açıq Qapı" günündə iştirak etmək üçün hərbi hissəyə təşrif buyurublar.

Çox keçmir ki, polkovnik-leytenant Rüstəm Məmmədov tədbir iştirakçılarını səmimi salamlayaraq, onları hərbi hissəyə dəvət edir. Zabit tədbir iştirakçılarına bildirir ki, hərbi hissənin şəxsi heyəti şərəfli döyüş yolu keçib, Naxçıvan, Ağdam, Tərtər, Ağdərə bölgələrində döyüş əməliyyatlarında fəal iştirak edib. "Ölkəmizin suverenliyinin, müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində şəxsi heyətin xidmətləri az olmayıb. Fədakar Vətən övladlarının bir qrupu yüksək ada, orden və medallara layiq görülüb. Ən böyük, yaddaqalan hadisə isə görkəmli dövlət xadimi, müasir Azərbaycanın qurucusu Heydər Əliyevin hərbi hissənin şəxsi heyəti ilə keçirilən görüşləridir. O günləri heç vaxt unutmayan şəxsi heyətimiz Ulu Öndərin ideyalarının həyata keçirilməsi üçün Vətənə, xalqa sədaqətlə xidmət edir. Xalqımızın və ordumuzun yenilməz qüdrəti ilə işğalda olan torpaqlarımızı tezliklə azad edəcəyik."

Sonra tədbir mərkəzi meydanda davam etdirildi. Öncə ümummilli lider Heydər Əliyevin abidəsi önünə qızılgüllər qoyuldu və xatirəsi böyük məhəbbətlə yad olundu.

Polkovnik-leytenant Rasim Manafov tədbiri açıq elan edərək bayram günləri münasibəti ilə toplaşanları təbrik etdi. Çıxışına davam edən zabit ölkəmizdə ordu quruculuğuna Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən xüsusi diqqət yetirildiyini vurğuladı. Bildirdi ki, son illər həyata keçirilən islahatlar ordumuzun gücünü, qüdrətini daha da artırıb. "Silahlı Qüvvələrin bütün istiqamətlər üzrə inkişafı yüksək səviyyədədir. Xalqımızın orduya inam hissi daha da artıb, ordu ilə xalqın birliyi daha da möhkəmlənib. Genişmiqyaslı mədəni-kütləvi tədbirlər də xalqla ordunun yenilməz birliyinin təzahürünə çevrilir. "Açıq qapı" günlərində əsgər valideynləri, ictimaiyyət nümayəndələri ordu həyatı ilə daha yaxından tanış olurlar. Bu görüşlər onlarda ordu haqqında geniş təsəvvür yaradır. Vətənə, xalqa nümunəvi xidmət üçün bizə göstərilən etimadı doğrultmaq, həmişə döyüş və mənəvi-psixoloji hazırlığımızı artırmaq və bununla da Vətən torpaqlarının işğaldan azad olunmasına nail olmaq əsas məqsədimizdir. İnanırıq ki, növbəti illərdə təntənəli bayram günlərini ölkəmizin bütün guşələrində keçirəcəyik."

General-mayor Xəqani Cəbrayılov tədbir iştirakçılarını əlamətdar bayram günləri münasibəti ilə təbrik etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandanın həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin sürətli inkişafının təmin olunduğunu, iqtisadi, siyasi və hərbi sahədə böyük uğurlar qazanıldığını diqqətə çatdıran zabit bildirdi ki, bu gün bütün dünyada qeyd olunan Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təşəbbüskarı xalqımızın ümummilli lideri Heydər Əliyevdir. "Ulu Öndərin müdrik siyasəti hazırda onun layiqli yetirməsi, ölkə Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. İnanırıq ki, tezliklə Ali Baş Komandanın rəhbərliyi altında ölkəmizin ərazi bütövlüyü bərpa edəcəyik. Vətənimizin hər bir guşəsində qürur mənbəyimiz olan üçrəngli bayrağımızı dalğalandıracağıq."

İctimaiyyət nümayəndələri, əsgər valideynləri hərbçilərlə birgə əsgər yataqxanasına, istirahət, yataq otaqlarına baş çəkdilər. Ehtiyatda olan polkovnik-leytenant Rüstəm Hüseynov, Bakı şəhəri Qaradağ rayon sakini Yasəmən Şirinova, Ağdam rayonunun Çəmənli kənd sakini, ömrünün 30 ilini gənc nəslin təlim-tərbiyəsinə həsr etmiş Musa Məmmədov və başqaları Vətən müdafiəçiləri üçün yaradılan yüksək şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

Sonra tədbir iştirakçıları əsgərlərlə birgə bayram süfrəsi arxasına əyləşdilər.

Tədbir Gəncə şəhəri İncəsənət Mərkəzinin 3 saylı musiqi məktəbinin hazırladığı zəngin konsert proqramı ilə başa çatdı.

* * *



31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni 2018-ci ilin gəlişi münasibətilə hər il olduğu kimi, bu il də "N" hərbi hissəsində "Açıq qapı" günü keçirildi.

Ənənəvi olaraq keçirilən "Açıq qapı" günləri istər şəxsi heyət, istərsə də valideynlər və ictimaiyyət tərəfindən müsbət qarşılanır.

Əvvəlcə hərbi hissə rəhbərliyi və ictimaiyyət nümayəndələri hərbi hissənin həyətində ucaldılmış ulu öndər Heydər Əliyevin büstünü ziyarət edərək, önünə gül-çiçək dəstələri düzdülər.

Daha sonra qonaqlara yaxınlaşan polkovnik Qurban Qurbanov əsgər valideynlərinə üzünü tutaraq dedi: "Əziz valideynlər və qonaqlar! İlk növbədə sizləri 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi qəlbdən təbrik edirəm. Hər birinizə Yeni ildə bol uğurlar, ailə səadəti, cansağlığı arzulayıram. Bu gün siz hərbi hissədə şəxsi heyətin yaşayış və məişəti üçün yaradılan şəraitlə yaxından tanış olmaq, xidməti binalara, o cümlədən əsgər yataqxanalarına və yeməkxanasına baş çəkmək imkanı əldə edəcəksiniz. Öz övladlarınızla birlikdə nahar edəcək, təşkil olunmuş bayram konsertində iştirak edəcəksiniz."

Hərbi hissənin şəxsi heyəti sıra meydanında düzüldü.



Bayram əhval-ruhiyyəsi hər bir zabitin, gizirin, əsgərin, eləcə də öz övladları ilə tezliklə görüşmək arzusunda olan valideynlərin də üzündə duyulur.

Daha sonra çıxış edən Sumqayıt şəhər İcra Hakimiyyəti Başçısının birinci müavini Faiq Kərimov şəhər ictimaiyyəti adından şəxsi heyəti bayram münasibətilə təbrik etdi.

Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər Təşkilatı sədrinin müavini Vəzirxan Ənsərov da şəxsi heyəti Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik etdi. "Qədim tarixə malik xalqımız Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramını tarixi köklərinə xas olan ən xoş amal və duyğularla keçirir. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə elan edilmiş milli-mənəvi birliyə çağırış günü ilə soydaşlarımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməsi prosesinin başlanğıcı qoyulub."

Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt Filialının sədri Tərlan Hacızadə tribuna önünə keçərək şəxsi heyəti və əsgər valideynlərini salamlayaraq, bayram münasibətilə onlara ən xoş arzularını ünvanladı.

Daha sonra valideynlər və qonaqlar hərbi hissədə olan əsgər yataqxanalarına, hamam və camaşırxanaya, eyni zamanda hərbi hissə ərazisində nümayiş etdirilən döyüş texnikalarına baxdılar.

Əsgər yeməkxanasında bayram münasibətilə Sumqayıt şəhər Mədəniyyət Evinin özfəaliyyət ansamblının iştirakı ilə konsert proqramı təşkil olundu. Klub rəisi Tural Əlibabayev çıxış edərək təşkil olunan konsertə görə Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsinin və mədəniyyət evinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Sonda hərbi hissənin tədbirlərində fəal iştirak edən incəsənət işçiləri komandanlıq tərəfindən fəxri fərmanla təltif olundular.

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib

(Əvvəli 4-cü səhifədə)



Dekabrın 30-da ön xətdə yerləşən "N" hərbi hissəsində də Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə "Açıq qapı" günü keçirildi. Hərbi hissənin ərazisi bayramsayağı bəzədilib. Hər tərəfə göy, qırmızı, yaşıl bayraqlar sancılıb. Mərasimdə yüksək rütbəli hərbi qulluqçular, qonaqlar, ictimaiyyət nümayəndələri, müharibə veteranları, həmçinin əsgər valideynləri iştirak edirdi.

Tədbir sıra meydanında hərbi hissə komandirinin şəxşi heyətin "Açıq qapı" gününə hazır olması barədə raport verməsi ilə başladı. Birlik komandiri şəxsi heyəti salamladı və onları hər iki bayram münasibətilə təbrik etdi.

General-mayor Mayis Bərxudarov qonaqları və bütün tədbir iştirakçılarını bir daha bayramlar münasibətilə təbrik etdi. Çıxışında Silahlı Qüvvələrimizin keçdiyi döyüş yolundan, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra baş vermiş dəyişikliklərdən, dahi rəhbərin layiqli davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə ordumuzun qazandığı nailiyyətlərdən söz açdı. "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis olunması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Həmrəy sözü bərabər olmaq, bir olmaq, bir rəhbər arxasında irəliləmək, dövləti qorumaq və bir



çox mənaya gəlir. Sevindirici haldır ki, bu gün hərb sahəsində də həmrəyik. Ali Baş Komandan İlham Əliyevin əmri və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq göstərişi ilə hər bir bayram günündə keçirilən "Açıq qapı" günü xalqla ordunun həmrəyliyinin, birliyinin bariz nümunəsidir. Belə tədbirlərdə valideynlər övladlarının məişət şəraiti ilə yaxından tanış olurlar. Hamıya aydındır ki, qısa bir vaxtda ordumuzun bütün hərbi hissələri yenidən qurulub və şəxsi heyətin istifadəsinə verilib. Təbii ki, ordu quruculuğu Ulu Öndərin adı ilə bağlıdır. Onun uzaqgörənliyi sayəsində ordumuz inkişaf mərhələləri keçib. Bu gün isə Ali Baş Komandan cənab İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bütün hərbi hissələrdə şəxsi heyətin rahat xidmət etməsi üçün hər cür şərait yaradılıb. Hər bir əsgər ona təhkim olunmuş silah və texnikaların sirlərini mükəmməl mənimsəyib. Mən hamını əmin edirəm ki, Azərbaycan əsgəri işğalda olan torpaqlarımızı azad etməyə hər an hazırdır. Artıq mənfur düşmən də bilir ki, bu gün Azərbaycan Ordusu Qafqazda ən güclü ordudur. Mən bir daha sizi rəhbərlik etdiyim kollektiv adından təbrik edir, şərəfli xidmətinizdə uğurlar arzulayıram."

Tədbirdə iştirak edən Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov da çıxışında şəxsi heyəti və qonaqları bayramlar münasibətilə təbrik etdi: "Həmrəylik Günü və Yeni il dövlətimizin ən əziz və yaddaqalan bayramlarından biridir. Bu günün tarixi hamımıza məlumdur. 1989-cu ildə Şimali və Cənubi Azərbaycan arasında olan tikanlı məftillər xalqımızın mərd oğulları tərəfindən söküldü. Beləliklə, millətimiz birləşdi. Qısa vaxtdan sonra ümummilli liderimiz Heydər Əliyev tərəfindən həmin tarix - 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis olundu. Təkcə Azərbaycanda yox, dünyanın hər yerində yaşayan 50 milyondan çox azərbaycanlı bu günü böyük təntənə ilə qeyd edir. Çünki bu bayram bizim birliyimizi, bərabərliyimizi bütün dünyaya sübut edir. Ona görə də yuxarı komandanlığın hər iki bayram münasibətilə təşkil etdiyi "Açıq qapı" günü xalqla ordunun sıx birliyinin göstəricisidir. Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir. Bu gün biz dövlətimizin əsgərinə yaratdığı şəraiti görərkən çox sevinirik. Ordumuzda böyük islahatlar aparılıb. Bizim güclü, müasir silah və texnikalarla təchiz olunmuş qüdrətli ordumuz var. Ötən ilin aprelində baş verən hadisələr zamanı bir daha bunun şahidi olduq. İnanırıq ki, çox yaxın zamanda Azərbaycan Ordusu əzəli torpaqlarımızı düşməndən azad edəcək. Mən arzu edirəm ki, üzümüzə gələn il bütün bayramlarımızı böyük təntənə ilə Qarabağımızda qeyd edək."

Tədbirin bədii hissəsi Şaxta babanın sıra meydanında rəngbərəng işıqlarla bəzədilmiş yolkanın yanına dəvəti ilə davam etdi. Şaxta baba, Qar qız və yeni ilin digər obrazları yolkanın ətrafında rəqs etdilər. Beyləqan rayon Mədəniyyət evinin solistləri şən mahnılar ifa etdilər.

Təbii ki, əsgər valideynlərini, yaxınlarını və digər qonaqları şəxsi heyətin məişət şəraiti, gündəlik gərgin xidmətindən sonra istirahəti, qidalanması da maraqlandırırdı. Əvvəlcə valideyn və qonaqlar hərbi hissənin yataqxanası, məişət şəraiti, daha sonra sıra meydanında düzülmüş silah və avadanlıqlarla, şəxsi heyətin gündəlik qida rasionu və əşya təminatı ilə yaxından tanış oldular.

Sonda valideynlər və qonaqlar əsgərlərlə birgə yeməkxanada nahar etdilər.

* * *

"Açıq qapı" günü "N" hərbi hissəsində də böyük coşqu və maraqla keçdi. Valideynlərin, ictimaiyyət nümayəndələrinin marağı bu tədbirin bilavasitə ordu quruculuğu ilə əlaqədar olduğunu təsdiqləyirdi. Hamı bir daha inanacaqdı ki, Silahlı Qüvvələrimizdə xidmət əsgərlər üçün də, valideynlər üçün də qürurvericidir.

Tədbiri general-mayor Hikmət Həsənov açaraq Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana müvafiq olaraq keçirilən bu tədbirin mahiyyətindən, ordu ilə cəmiyyət arasında münasibətlərə xidmət etməsindən və s. danışaraq dedi:

- Son dörd ildə Silahlı Qüvvələrimizdə həyata keçirilən irimiqyaslı islahatlar öz təsirini göstərdi. İndi ordumuz Cənubi Qafqazda ən güclü ordudur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin dediyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" fikri hər bir zabitin, hər bir əsgərin qürurunu daha da artırıb.

2016-cı ilin aprel döyüşləri həm də ordu ilə ictimaiyyət arasında münasibətlərin təntənəsi oldu. Xalqla ordunun birliyi təsdiqlədi ki, həqiqətən respublikamızda xalq ordunun, ordu xalqın dayağıdır.



Bugünkü tədbir də bu münasibətlərin şəffaflığına görə təşkil olunur.

General daha sonra qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hər bir əmrini yerinə yetirməyə hazırıq. "Sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan azad edəcəyik", - dedi.

Sonra ictimaiyyətin nümayəndələri, valideynlər hərbi hissə ilə ətraflı tanış oldular. Onlar əsgər yataqxanalarını, yeməkxanaları ziyarət etdilər. Əmin oldular ki, Azərbaycan əsgəri üçün yüksək şərait yaradılıb. Valideynlər də, ictimaiyyətin nümayəndələri də belə şəraitə görə Ali Baş Komandana, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər.

"Açıq qapı" günü hamıya əsl bayram ovqatı verdi...

Söhbətləşdiyim valideynlərdən eşitdiklərimi, ümumən, ictimaiyyətin ordumuz haqqında düşüncələri bildim. Əsgər anaları, əsgər ataları qürurla bildirdilər ki, oğullarının hərbi xidmətdə olması onların ürəyini dağa döndərir: "Hələ orta məktəbdə oxuyanda "Mən də əsgər olacam!" - deyirdi. İndi əsgərdir. Sevinirəm ki, Hərbi Nizamnamələrin tələblərinə uyğun xidmət edir", "Altı ayın əsgəridir. Səmimiyyətimə inanın, görəndə az qala tanımaycaqdım. Xidmət əsgəri həm də gümrahlaşdırır, sağlamlaşdırır, sağlamlığını, fiziki inkişafını təmin edir", "Açıq Qapı" gününə 6 yaşlı nəvəmlə gəlmişəm. Bu yaşda uşağın düşündükləri mənə bir baba kimi könül xoşluğu verdi. Nəvəm dayısını görüncə boynuna sarıldı. "Kaş mən də sən yaşda olaydım!" - dedi. Şadam ki, belə nəvənin babasıyam. Mənə elə gəlir ki, bu hissləri bütün babalar yaşayır".

Aylar keçəcək, əsgərlər Vətənə borcunu yerinə yetirib evlərinə qayıdacaqlar. Onlar da, valideynlər də, biz də arzulayırıq ki, həmin günləri torpaqlarımızın işğaldan azad edilməsiylə qoşa yaşayaq. Yaşayacağıq da!... Axı Azərbaycan güclü dövlətdir, Azərbaycanın ordusu güclüdür. Son vaxtlar keçirilən irimiqyaslı təlimlər də təsdiqlədi ki, bu ordunun yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan zabitləri, əsgərləri Ali Baş Komandanın hər bir əmrini yüksək səviyyədə yerinə yetirməyə hazırdır.

* * *

"Açıq qapı" günü ərəfəsində hərbi qulluqçuların övladları üçün bayram şənlikləri də təşkil olunub.

Müdafiə nazirinin tapşırığına əsasən, bayram günlərində Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və xüsusi təyinatlı hərbi təhsil müəssisələrində pulsuz yeni il şənlikləri təşkil olunub.

Məktəb tətili günlərində keçirilən bayram şənliklərində hərbi qulluqçuların ümumilikdə 8 minədək övladı üçün yeni il konsertləri, tamaşalar və digər mədəni-əyləncə tədbirləri keçirilib.

Bayram mərasimlərində Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Naxçıvan Qarnizon Zabitlər Evinin və Gəncə Zabitlər Evinin, eləcə də rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri uşaqlar qarşısında maraqlı konsert proqramları ilə çıxış ediblər.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**
**1. Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**
**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.

*Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir*

Azərbaycan Silahlı Qüvvələrinin hər bir hərbi qulluqçusu yaddan çıxarmamalıdır ki, bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmayıb, torpaqlarımızın 20 faizi işğal altındadır.

Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir. "Silahlı Qüvvələr haqqında" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir ki, ordu quruculuğunun əsas prinsiplərindən biri yüksək döyüş hazırlığıdır. Hərbi qanunvericiliyə uyğun olaraq, hərbi qulluqçular Azərbaycan Respublikasının mənafeyini, suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qorumağa, Hərbi and içməyə, Azərbaycan qanunlarına əməl etməyə, komandir və rəislərin əmrlərini qeyri-şərtsiz yerinə yetirməyə borcludurlar.

Müasir döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil bir hərbi əməliyyatdır. Döyüş qələbə qazanmağın yeganə vasitəsidir. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O, öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Ümumqoşun döyüşü tanklardan, piyadaların döyüş maşınlarından (zirehli transportyorlardan), artilleriyadan, hava hücumundan müdafiə vasitələrindən, təyyarələrdən, vertolyotlardan, digər döyüş texnikasından və silahlardan istifadə etməklə döyüşdə iştirak edən bütün qoşunların birgə fəaliyyəti ilə aparılır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi keyfiyyətləri, qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzən döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını pis bilmələri və ona görə də həmin imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə döyüşlər apara-apara formalaşan Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi. 1993-cü ildən etibarən Azərbaycanın dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətini yüksəltmək, ordunun döyüş hazırlığını artırmaq üçün apardığı ardıcıl və məqsədyönlü iş bu gün öz bəhrəsini verir. Bu gün orduda xidmət edən əsgərlərimiz belə bir tarixə söykənir. Azərbaycan əsgərinin üzərinə ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün hər an döyüşə hazır olmaq kimi şərəfli və məsuliyyətli bir vəzifə düşür. Bu vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi isə əsgərlərimizdən yüksək döyüş və mənəvi-psixoloji hazırlıq tələb edir. Əsgərin öz xalqının və ölkəsinin tarixini bilməsi, bu gün üzərinə düşən vəzifə məsuliyyətini dərk etməsi onun mənəvi-psixoloji hazırlığında xüsusi əhəmiyyət kəsb edir. Son illərdə ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və milli ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Azərbaycan Ordusu hazırda dövlət rəhbərliyinin böyük qayğısı sayəsində özünün yüksək inkişaf mərhələsini yaşayır. Biz bu gün müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşuq.

*Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur*

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi and içir. Hərbi and hər bir hərbi qulluqçudan:

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin döyüşçüsünün vəzifə borcunu dərindən dərk etməsini, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə və inamla qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, hərbi nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin iyununda Naxçıvan qarnizonunun şəxsi heyəti ilə görüşərkən dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərb işini vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikası və digər texnikanı yaxşı bilsin. Bu gün Azərbaycan Ordusunda olan döyüş texnikası və digər texnika, silahlar və sursatlar ordunun döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycanda ordu quruculuğu prosesini daim diqqət mərkəzində saxlayacağını bəyan edərək demişdir: "Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır".

Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının və Müdafiə nazirinin 2018-ci tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də birləşmələrin, hissələrin və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü torpaqlarımızın azadlığı uğrunda gələcək döyüşlərə hazırlayır.

Ümummilli lider Heydər Əliyev demişdir: "Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müvafiq silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi qoruyacaq və ən əsası, işğal olunmuş torpaqlarımızın azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik".

**Qeyd:** *Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdir. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzu hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırmaq, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu surətdə dərk etməsi üçün planlaşdırılır və keçirilir.*

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

*Heç kim unudulmur*

# "Səkkiz oğul istərəm"

*Cəmşid Naxçıvanski adına Hərbi Lisey və Milli Mədəniyyətin Təbliği İctimai Birliyinin təşəbbüsü ilə Beynəlxalq Mətbuat Mərkəzində cəbhə xəttində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş hərbçilərin xatirəsinə həsr olunmuş "Səkkiz oğul istərəm" adlı tədbir keçirildi. Mərasimə aprel döyüşlərinin iştirakçıları da dəvət edilmişdilər. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və yurdumuzun azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Mərasim iştirakçıları Dövlət himnini oxudular.*





1997-ci ilin aprelində Xocavənd rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olan hərbçilər haqqında iştirakçılara ətraflı məlumat verildi. Bir-bir bu cəsur oğulların adları səsləndirildi: leytenant Elxan Ağayev, leytenant Vüqar Yarəhmədov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Anar Rzayev, Aqşin Həsənov, Nizami Ələkbərov, Fariz Cavadov və Dinar Mustafayev. Bu oğullar düşmən əlinə keçməmək üçün son anda çoxlarının bacara bilmədiyi bir addımı ataraq özlərini partlatmışdılar. Ermənilər tərəfindən ələ keçirilən meyitlər 1997-ci ilin oktyabrında geri qaytarılıb. Sonradan məlum olub ki, döyüşçülərimizdən biri - Aqil Əhmədov ölməyib, ağır yaralanıb. Ermənilər həmin əsgəri bir il on bir aydan sonra əsirlikdən azad etmişlər.

Bu qəhrəman zabit və əsgərlərin xidmət və döyüş yollarına həsr olunmuş "Səkkiz oğul istərəm" sənədli film nümayiş etdirildi.

Döyüş tapşırığını yerinə yetirərkən ağır yaralanıb sağ qalan hərbçi Aqil Əhmədov çıxış edərək şəhid yoldaşları haqqında ətraflı danışdı. O çıxışını "Mən yenə də ayaq üstəyəm, yenə də mübarizəyə, Qarabağ uğrunda döyüşlərə hazıram" sözləri ilə bitirdi.

Şəhid anası Xanım Həsənova çıxış edərək övladlarının xatirəsinə göstərilən ehtirama görə dərin minnətdarlığını bildirdi.

Bir vaxtlar bu şəhid hərbçilərin komandiri olmuş ehtiyatda olan polkovniklər Xətai Baxışov və Hikmət Ağayev çıxış edərək onların hünər və cəsarətindən danışdılar.

Əməkdar artist Nuriyyə Hüseynovanın ifa etdiyi vətənpərvərlik mahnıları hər kəsin üreyincə oldu.

Tədbirdə iştirak edən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər. Onlar teatrlaşdırılmış qısa səhnələrdə şəhid olmuş hərbçiləri yaşatdılar, bu oğulların cəsur və igid obrazlarını canlandırdılar.

Milli Mədəniyyətin Təbliği İctimai Birliyi və başqa ictimai təşkilatlar döyüş əməliyyatı zamanı sağ qalmış səkkiz hərbçidən, səkkiz oğuldan birinə - Aqil Əhmədova və şəhid Vüqar Yarəhmədovun oğlu, atasının adını daşıyan Yarəhmədov Vüqar Vüqar oğluna qiymətli hədiyyələr təqdim etdilər.

Tədbirin sonunda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları tərəfindən üçrəngli bayrağımız nizami addımlarla və alqış sədaları altında zala gətirildi. Sabahımızın zabitləri olacaq gənclər torpaqlarımızın düşməndən azad ediləcəyini və şəhidlərimizin intiqamının alınacağını söylədilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Şəhid Elşən Məmmədovun xatirəsi anılıb

*Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin əməkdaşları bu ölkədə azərbaycanlıların yığcam yaşadıqları Bolnisi rayonunun Zol-Güvəc kəndində, 2015-ci il sentyabrın 25-də şəhid olmuş Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Elşən Vaqif oğlu Məmmədovun ailəsini ziyarət ediblər.*

Səfirliyin hərbi attaşe aparatının rəhbəri polkovnik-leytenant Fuad İbrahimov, müavini mayor Elcan İmamverdiyev, səfirliyin ikinci katibi Fəxri Hacıyev və başqaları şəhidin ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıblar.

F.İbrahimov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbriklərini çatdırıb, şəhidlərin xatirəsinə göstərilən yüksək ehtiramdan, onların ailələrinə diqqət və qayğıdan danışıb.

Sonra səfirliyin əməkdaşları, eləcə də Bolnisi şəhər merinin müavini Lonqinoz Həsənov, Bolnisi Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin sədri Əlixan Yəhyaoğlu, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Məmmədzadə, kənd ziyalıları və jurnalistlər Şəhid Elşən Məmmədovun məzarını ziyarət ediblər.

Şəhidin məzarının ətrafında həmişəyaşıl ağaclar və gül kolları əkilib.

Sonra tədbir iştirakçıları şəhidin ev-muzeyinə baxış keçiriblər. Fuad İbrahimov jurnalistlərə açıqlamasında Azərbaycanın və Gürcüstanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların xatirəsinin hər iki ölkədə uca tutulduğunu bildirib. Vurğulayıb ki, Vətən torpaqlarının müdafiəsi uğrunda həlak olan insanlar heç zaman unudulmur.

Hərbi attaşe deyib: "Elşən kimi bütün şəhidlərimizlə fəxr edirik. Onlar ölməyiblər. Hərb tariximizə şanlı səhifələr yazan şəhidlərimiz daim ürəyimizdə yaşayacaqlar".

Şəhidin atası Vaqif Məmmədov göstərilən diqqət və qayğıya görə minnətdarlıq edib. O, oğlunun adının uca tutulmasını, şəhidlərə göstərilən diqqət və qayğını yüksək qiymətləndirib.

Xatırladaq ki, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, 23 yaşlı Elşən Məmmədov 2015-ci ildə Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində düşmənin atəşkəs rejimini pozması nəticəsində şəhid olub.

Elşən Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" və "Şücaətə görə" medalları ilə təltif edilib.

**AZƏRTAC**

*Nümunəvi xidmət*

# "Güclü ordunun əsgəriyəm!"



*Yolumuz Vətəni qorumağı özünə borc bilən oğullarımızın yanınadı - səngərədi. O səngərə ki, oradan Vətən başlayır, oradan Vətən qorunur, oradan Azərbaycan əsgəri düşməni fasiləsiz müşahidə edir, parçalanmış torpağımızın bütövləşməsi üçün yağış, boran, qar bilmədən öz vəzifəsini yerinə yetirir. Budəfəki həmsöhbətlərim də düşmənlə üz-üzə dayanıb sərhədlərimizi etibarlı şəkildə qoruyan, məsuliyyətli və şərəfli vəzifənin daşıyıcıları olan zabit, gizir və əsgərlərimiz olacaq.*

Bütün bunlar barədə düşünə-düşünə ön xətdə yerləşən mövqeyimizə yaxınlaşırıq.

Baş leytenant Əfqan Əmirov postu dəyişən əsgərlərə lazımi tapşırıq və tövsiyələr, eyni zamanda təhlükəsizlik tədbirlərini nəzərdə tutan təlimatlar verirdi. Təlimat başa çatdıqdan sonra şəxsi heyətlə və səngərdə yaradılan şəraitlə tanış oluruq.

Əsgərlərlə ilk ünsiyyətimizdən sonra onların döyüş hazırlığına, vətənpərvərliyinə, bu torpağa bağlı olduqlarına heç bir şübhəmiz qalmır.

Yevlax rayonundan hərbi xidmətə çağırılan Məqsəd İlyasov söhbət zamanı bildirir ki, hər zaman dövlətinə, millətinə xidmət edən əsgərlərə həsəd aparıb.

- Ən böyük arzum ön xətdə xidmət etmək olub. Bu gün çətin və məsuliyyətli bir bölgədə xidmət edirəm. Əsgər kimi üzərimə düşən vəzifənin məsuliyyətini dərk edirəm. Sevinirəm ki, güclü ordunun əsgəriyəm və torpaqlarımızın qorunmasında mənim də zəhmətim var. Xalqımızın əmin-amanlığı naminə buradayıq. Bu gün mənim də qəlbimdə düşmənə nifrət böyükdür. Xalqımızın başına gətirilən Xocalı, Qaradağlı, Ağdaban... kimi faciələri necə yaddan çıxarmaq olar. O faciələr torpaqlarımızın azadlığı uğrunda mübarizənin ən qanlı səhifələridir. O faciələri xatırlayanda ürəyim sızıldayır, qan ağlayır. Qarşıda uçuq-sökük binaları, dağıdılmış evləri seyr edirik. Axı bu evlərdə vaxtilə bizim ata-babalarımız, ana-bacılarımız xoş günlər keçiriblər. Onlar da hamı kimi bayramlarımızı qeyd ediblər, yeni ili qarşılayıblar, Novruzun gəlişinə seviniblər. Bu torpaqlar bizə məxsusdu. Bizə məxsus olanı biz geri qaytaracağıq. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, biz öz torpağımızda vuruşuruq. "Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun".

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Mən Azərbaycan vətəndaşıyam!

Fəxr olunası hallardan biri də öz vətəndaşlığımızdı. Belə diyarın vətəndaşı olduğum üçün qürur duyuram. Biz bu ifadəni "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kimi də vurğulaya bilərik.

"Azərbaycan". Bəli, bu ad "Vətəndir". Sənin, mənim və gələcək nəsillərin. Mənə görə ana və Vətən eyni anlayışlardır. "Vətən" sözünün mənası nə qədər müqəddəsdirsə, biz onu ana bilirik. Azərbaycanın keşməkeşli, daşlı-kəsəkli, enişli-yoxuşlu keçmişi olub. Belə bir ifadə var: "Fəlakətlərin səbəbi iki şeydən baş verir. Birincisi, gözəllik; ikincisi sərvət". Bu cəhətlərin ikisi də Azərbaycanda var. Tanrı bizə zəngin coğrafi torpaqlar bəxş edib. Belə bir sual eşitmişəm: "Azərbaycanlı olmaq çətindi, yoxsa müsəlman olmaq? Ya da ümumən insan olmaqmı çətindir?". Doğrudur, hər bir halda insan olmaq çətindir. Yer üzərində insanlar çoxdur, ancaq insanlıq çox az rastlanan bir haldır.

Keçmişimizdə bizə çox böyük haqsızlıqlar oldu. Parçalandıq, qopduq, dağılıb-töküldük. Rusiyanın təhriki ilə ermənilər bizə hücum çəkdi. Mənim millətim heç kəsi öldürməyib, heç kəsi incitməyib. Erməni yırtıcıları isə qəddarcasına yüzlərlə günahsız qocanı, körpəni vəhşicəsinə öldürdü. Həm də gözlərini belə qırmadan.

Türklər böyük bir ərazini əhatə edib. Əfşarlar, Qacarlar məhz türksoylu sülalələr olub. Xəritələrin isə heç bir önəmi yoxdur. Bu, sadəcə, müəyyən koordinatlarla çəkilmiş kağız parçasıdır. Bizim Azərbaycan Respublikası dünya xəritəsində çox kiçik əraziyə malikdir. Ancaq mən "bütöv Azərbaycan"ımızı sevirəm. Ərazisi şimaldan Dərbənd keçidi, cənubdan Urmiya gölü, qərbdən isə İrəvan torpağı, yəni, indiki Ermənistan ərazisi daxil olmaqla qəlbi parçalanmış Azərbaycanımızı! Bəli, bu həmin parçalanmış Azərbaycandır ki, Şəhriyarın könlünü Vətən həsrətiylə qan etmişdi. Onun "Azərbaycan" şeiri insanların dilində himnə, azadlıq nəğməsinə çevrilib.

*Könlüm quşu qanad çalmaz*
*sənsiz bir an, Azərbaycan*
*Xoş günlərim getmir müdam*
*xəyalımdan, Azərbaycan.*
*Şəhriyarın ürəyi də,*
*sinəsitək yaralıdır,*
*Azadlıqdır mənə məlhəm,*
*sənə dərman, Azərbaycan.*

Bir ölkəni digərlərindən fərqləndirən cəhətlərlə yanaşı, onu tanıdan atributu olur. Bu, bayraqdır. Ən mənalı məzmuna malik olan bayraq məhz bizim bayraqdır - üçrəngli bayrağımız.

Bir zamanlar çətin vəziyyətdə idik. Onda tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanı xilas etdi. Burulğanlı dənizdə gəminin kapitanı idi və onun idarə etdiyi sükan bizi dəhşətli tufandan qurtardı. Bunun nəticəsidir ki, biz məndən səkkiz yaş böyük olan azadlığı tanıdıq, zəncirləri qırdıq, müstəqil olduq.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - Heydər Əliyevin bu kəlamı Azərbaycana sonsuz sevgidir. Heydər Əliyevin daha bir ifadəsi də - "Cəmiyyət olmadan şəxsiyyət formalaşa bilməz" hər birimizin düşüncələrimizə hopub. Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadənin görmək istədiyi kimi. Güclü siyasətimiz, güclü dövlətimiz və güclü ordumuz var. Bu gün biz demokratik ölkəyik. Demokratiya - insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə tədricən gedir.

Bu gün mən müstəqil bir dövlətdə yaşayıramsa, bunu kimlərəsə borcluyam. Təbii ki, bu "kimlər" Mübarizlər, Samidlər, Çingizlər, Eminlərdir. Mən xoşbəxtəm ki, Azərbaycan adlı diyarda doğulmuşam və yaşayıram! Xoşbəxtəm ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününə bu qədər sevgilərimiz var.

**Hüsniyyə İDRİSOVA,**
**Bakı Slavyan Universitetinin tələbəsi**

# "Vətənə xidmət vətəndaşlıq borcumuzdur"



Cəbhə bölgəsində Vətən borcunu yerinə yetirən əsgərlərimizlə görüşə gəlmişik. "N" hərbi hissəsinin avtomobil parkında avtomobilə böyük həvəslə texniki qulluq göstərən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu diqqətimizi cəlb edir. Əvvəl çilingər olduğunu düşündüm. Kapitan Tərlan Gülməmmədov ona yaxınlaşaraq avtomobilin yola çıxmağa hazır olub-olmadığını soruşanda sürücü olduğunu yəqin etdim. O, sükan arxasına keçib yola çıxmağa hazır olduğunu bildirir.

Öyrənirəm ki, Yasir Mütəllimov Ağcabədi rayonundandır. Hələ erkən vaxtlarından avtomobilə, sürücü peşəsinə istəyi olub. "Avtomobili idarə etmək asandır, hamı bu vərdişlərə alışa bilər. Yalnız sürücü öz məsuliyyəti, peşəkarlığı, təmkini ilə digərlərindən seçilməlidir. Bu, bir dəmir parçasıdır, hərəkətdə olduğun zaman çox hadisələr baş verə bilər, qəfil nasazlıqlar qarşına çıxa bilər və bu zaman öz peşəkarlığın sayəsində hər cür vəziyyətdən çıxmağı bacarmalısan. Sürücü özünü düşünməli deyil, o, sərnişin daşıdığını da unutmamalıdır."

Hərbçi olmağının səbəbini soruşduqda Yasirin cavabı belə oldu. "Vətənimə - doğma Azərbaycanımıza daha yaxından xidmət etmək, Vətənin hər qarışına sinəmi sipər edib onu qorumaq mənim də amalımdır. Xüsusən indiki vaxtda, torpaqlarımızın 20 faizinin yağı tapdağında olduğu bir zamanda Vətən bizdən hünər gözləyir. Mən bütün qanımla, canımla onu qorumağa hazıram. Vətəni qorumaq isə hamımızın şərəf işi, vətəndaşlıq borcudur. Hər zaman çalışıram ki, xidmətimlə başqalarına nümunə olum."

Dünyanın qabaqcıl ordularından olan Azərbaycan Ordusunda xidmət etdiyimə görə qürur hissi duyuram. İnanıram ki, Ali Baş Komandanımızın döyüş əmri ilə Qarabağımızı işğaldan azad edib Şuşada, Laçında, Kəlbəcərdə... üçrəngli bayrağımızı ucaldacağıq".

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# Robotlaşdırılmış qayıqlar




Hazırda Sinqapurun "ST Elektronics" şirkəti "Venus" ("Venera") nəslindən olan distansion idarəolunan gəmilərin hazırlanması və sınağı üzrə işlər aparır. Bu sinfə "Venus-9", "Venus-11" və "Venus-16" distansion idarəolunan gəmilər daxildir. Onların hər üçünün quruluşu müxtəlif tapşırıqların yerinə yetirilməsinə imkan verən silahlanma və cihazlanmaya malikdir. Bu gəmilərdən ölkənin sahil mühafizəsində, minalara qarşı mübarizə aparılmasında və s. tapşırıqların yerinə yetirilməsində istifadə edilir.

Distansion idarəolunan "Venus-16" gəmisinin su basımı 26 ton, sürəti tam faydalı yüklə birlikdə 35 mildir (saatda 35 kilometr). Distansion idarəolunan silahlanma ilə təchiz edilə bilər. Sualtı qayıqlara qarşı mübarizə aparmaq üçün yedəklənə bilir, minaların aşkar edilməsi və onların sistemlərinin neytrallaşdırılması üçün hidrolokatorla təchiz edilib. Gəminin uzunluğu 9,5 metr, hündürlüyü 5 metr, eni isə 2,8 metr təşkil edir. Təmiz çəkisi 3,5 tona qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Karate üzrə ikinci "Arpaçay Open" beynəlxalq turniri keçiriləcək




Yanvarın 13-14-də Bakıda Azərbaycan Milli Karate Federasiyasının təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş ikinci "Arpaçay Open" beynəlxalq turniri keçiriləcək.

Turnirdən bir gün əvvəl beşqat dünya və 13 dəfə Avropa çempionu Rafael Ağayevin iştirakı ilə Azərbaycanda ilk beynəlxalq seminar da təşkil ediləcək.

Hər iki idman tədbiri Bakı İdman Sarayında olacaq. Yarışlarda 6-17 yaşlı uşaqlar, yeniyetmə və gənclər mübarizə aparacaqlar. Yanvarın 13-də 6-7, 8-9 və 10-11 yaşlı uşaqlar, ertəsi gün isə 12-13, 14-15 və 16-17 yaşlı idmançılar tatami üzərinə çıxacaqlar.

## Azərbaycan taekvondoçusu "Böyük dəbilqə" turnirində bürünc medal qazanıb



Taekvando üzrə Azərbaycan milli komandasının və "Qəbələ" idman klubunun üzvü Milad Beigi Hərçeqani dekabrın 30-da Çində başlayan "Böyük dəbilqə" seriyalı turnirdə bürünc medal qazanıb.

80 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız dörddəbir finalda norveçli Riçard Andre Ordemanna 29:22 hesabı ilə qalib gəlib. Ardınca rusiyalı Maksim Xramtsova 6:19 hesabı ilə məğlub olan taekvondoçumuz üçüncü yer uğrunda döyüşdə rusiyalı Anton Kotkov ilə görüşüb. Rəqibindən 17:7 hesabı ilə üstün olan təmsilçimiz yarışı bürünc medalla başa vurub.

## Şəhriyar Məmmədyarov reytinq siyahısında əmsalını 2804 xala çatdırıb



Beynəlxalq Şahmat Federasiyası (FIDE) şahmatçıların 2018-ci ilin yanvar ayı üçün reytinq siyahısını açıqlayıb.

Azərbaycan şahmatçısı, üçqat Avropa çempionu Şəhriyar Məmmədyarov üçüncü sıradakı mövqeyini daha da möhkəmləndirib. Şahmatçımız əmsalını 2804 xala çatdırıb. O, FIDE-nin ötən ilin dekabr ayı üçün reytinq siyahısındakı əmsalını 5 xal yaxşılaşdırıb.

Digər şahmatçılarımızdan Teymur Rəcəbov (2748) iki pillə geriləyərək 19-cu sırada qərarlaşıb. Öz əmsalını və mövqeyini qoruyan Rauf Məmmədov (2709) 40-cı, iki pillə irəliləyən Arkadi Naydiç (2701, ötən ay 2705) isə 41-ci sıradadırlar.

Reytinq siyahısına hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen (2837) başçılıq edir. ABŞ şahmatçısı Fabiano Karuana isə 2811 xalla ikinci yerdədir.

## Ronaldo ən yaxşı futbolçu seçilib



Avropa Klubları Assosiasiyası (ECA) və Avropa Futbol Agentləri Assosiasiyası (EFAA) başa çatan ilin yekunlarına görə, "Globe Soccer Awards"ın mükafatçılarını müəyyən ediblər.

"Real" klubunun hücumçusu Kriştianu Ronaldo ən yaxşı futbolçu mükafatına, "Real" isə ən yaxşı klub adına layiq görülüb.

Ən yaxşı məşqçi adını Zinəddin Zidan ("Real") qazanıb. Liqalar arasında İspaniya çempionatı ən yaxşısı seçilib. Karles Puyol və Françesko Totti xüsusi rəğbət mükafatını qazanıblar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1
Nüsxə 3550